***Yeni Azərbaycan Partiyası xalqımızın çox ağır bir dönəmində onun mənafelərinə xidmət edən və ölkə qarşısında duran problemlərin həlli ilə məşğul olan, zərurətdən yaranmış bir siyasi təşkilatdır. Yarandığı vaxtdan ətrafına çoxlu sayda təəssübkeş toplayan siyasi təşkilat getdikcə cəmiyyətdə böyük nüfuz qazandı. Ölkəmizdə ictimai-siyasi sabitliyin gərgin olduğu, anarxiya və hərc-mərcliyin tüğyan etdiyi vaxtda ulu öndər Heydər Əliyevin banisi olduğu, xalqın inandığı və güvəndiyi bir partiya tez bir zamanda regionun ən böyük siyasi təşkilatına çevrildi. Müstəqilliyini yeni bərpa etmiş, ancaq səriştəsiz rəhbərlərin böhrana sürüklədiyi, uçuruma apardığı Azərbaycanda bu partiya xalqın yeganə ümid yeri oldu, dövlətçiliyin keşiyində dayanan siyasi qüvvəyə çevrildi.***



# YAP cəmiyyətdə yüksək nüfuza malik siyasi təşkilatdır

"Dünənin, bu günün, gələcəyin partiyası" olan YAP müstəqil Azərbaycanımızın dövlətçilik tarixində yeni bir yüksəliş mərhələsinin əsasını qoydu. Ulu öndərimiz Heydər Əliyev tərəfindən qurulan müstəqil Azərbaycan dövlətinin çiçəklənməsi və inkişafı bu gün Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilir. Çünki böyük ideyalarla zəngin olan YAP Azərbaycan dövlətçiliyinin və xalqının rifahı, xoşbəxt gələcəyi naminə çalışan və konkret konsepsiyaya malik siyasi təşkilatdır. YAP bu gün Cənubi Qafqazda, bütövlükdə, beynəlxalq münasibətlər sistemində özünün bütün müsbət keyfiyyətləri ilə fərqlənməkdədir.

1993-cü ildən bu günədək ölkəmizdə keçirilən bütün seçkilərdə Yeni Azərbaycan Partiyasının böyük üstünlüklə qələbə qazanması xalqın ona olan inamının bariz nümunəsidir. Hazırda 700 mindən çox üzvü olan YAP dünyanın ən güclü siyasi təşkilatları ilə bir sıradadır və hərtərəfli əməkdaşlıq əlaqələri mövcuddur. Bu baxımdan da, xalqımız ulu öndər Heydər Əliyev ideyalarını öz fəaliyyətində rəhbər tutan Yeni Azərbaycan Partiyasına böyük diqqət və qayğı, tükənməz məhəbbət hissi ilə yanaşır. Bütün bunlar isə cəmiyyətin sosial münasibətlər sistemində Yeni Azərbaycan Partiyasının aparıcı bir siyasi güc mərkəzinə çevrilməsinə mühüm töhfə kimi qiymətləndirilir.

Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev partiyanın keçdiyi keşməkeşli yolu belə dəyərləndirib: "Yeni Azərbaycan Partiyası güclü təşkilatdır və Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyil. Bu partiyaya mənim də münasibətim eynidir. Mən də öz siyasi fəaliyyətimi partiyasız təsəvvür etmirəm. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək, çox zəngin, qüdrətli dövlətə çevriləcəkdir".

Reytinqinə, cəmiyyətdə aparıcı mövqe tutmasına, üzvlərinin sayına, ideya-siyasi xəttinə görə, hər zaman öndə olanYAP-ın siyasi qüvvə kimi ölkədə real, ciddi alternativi yoxdur.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 6 mart.- S.3.